# AZƏRBAYCAN RESPUBLİKASI

# BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

# Ə M R İ

**№ 76** **06 avqust 2012**

## Binəqədi Rayon İcra Hakimiyyətində avtomatlaşdırılmış informasiya sisteminin (AİS) tətbiqi məqsədi ilə işçi qrupunun yaradılması haqqında

Müasir şəraitdə cəmiyyətin ən əsas inkişaf istiqamətlərindən biri cəmiyyət həyatının bütün sahələrinin avtomatlaşdırılması və iformasiyalaşdırılmasıdır. Təsadüfi deyildir ki, BMT-nin bütün üzv dövlətlərinin qəbul etdiyi üçüncü minilliyin inkişaf məqsədlərindən biri kimi informasiya-kommunikasiya texnologiyalarından (İKT) bəhrələnmək imkanı yaradılması göstərilir. İKT cəmiyyətin və iqtisadiyyatın inkişafına ciddi təsir göstərdiyinə görə dinamik templə sosial və iqtisadi həyatın bütün sahələrinə tətbiq olunur. Hal-hazırda, İKT-nin əhatə dairəsi hökümət təşkilatlarını, qeyri-hökümət və özəl qurumları, iqtisadi-sosial, elm-mədəniyyət, ictimai-siyasi, təhsil və s. sahələri əhatə edir. Cəmiyyətin lazımı informasiyalarla təchiz edilməsinin zəruriliyi artıq hamı tərəfindən qəbul olunur. İKT-nin inkişafı "biliklər iqtisadiyyatının", başqa sözlə neftsiz iqtisadiyyatın qurulmasına təkan verir.

Hazırda, Azərbaycan Respublikasında bu sahədə çox ciddi tədbirlər işlənməkdə və həyata keçirilməkdədir. Təkcə onu qeyd etmək kifayətdir ki, 2002-ci ilin fevral ayında Azərbaycan Respublikası ilə BMT İnkişaf Proqramı arasında imzalanmış proqram-layihəyə müvafiq olaraq hazırlanmış və Azərbaycan Respublkası Prezidentinin 17 fevral 2003-cü il tarixli 1146 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ikişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)'' qarşıdakı onillik dövr üçün hökümət proqramı statusu almışdır. Həmin strategiya dövlət idarəetməsində şəffaflığın təmin olunmasını, davamlı iqtisadi dirçəlişə nail olunmasını, əhalinin həyat şəraitinin yüksək dərəcədə yaxşılaşmasını, ölkədə vahid elektron informasiya məkanının formalaşmasını, bütün vətəndaşlar üçün informasiya əldə etmək imkanlarının yaranmasını və milli maraqlar nəzərə alınmaqla ölkənin ümumdünya elektron informasiya məkanına inteqrasiya olunmasını nəzərdə tutur. Bu proqramın – İKT üzrə Milli Strategiyanın yerinə yetirilməsi işi ümumdövlət, ümumxalq əhəmiyyətinə malik olmaqla cəmiyyət həyatının bütün sahələrində İKT-nin tətbiqini və onunla əlaqədar yarana biləcək bütün müsbət və mənfi nəticələrin həllini nəzərdə tutur.

Informasiya Kommunikasiya Texnologiyalarının durumu həmin dövlətin inkişaf səviyyəsinin əsas göstəricilərindən sayılır. Azərbaycan Respublikası üçün də bu sahənin inkişafı önəmlidir. Azərbaycan Respublikası Prezidentinin 21

oktyabr 2005-ci il tarixli 1055 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı"nda o zaman Azərbaycan üçün yeni olan, amma dünyanın əksər inkişaf etmiş ölkələrində uğurla sınaqdan çıxmış "elektron hökumət" anlayışı da öz əksini tapmışdı. "Elektron hökumət" XXI əsrdə dünya hökumətlərinin fəaliyyətini təmin edən, onun səmərəliliyini artıran əsas mexanizmlərdəndir. Elektron hökumətin yaradılmasının bir məqsədi dövlət strukturlarında informasiya kommunikasiya texnologiyalarının tətbiqidirsə, digər məqsəd də vətəndaşlar üçün dövlət qurumlarının xidmətlərindən istifadənin asanlaşmasıdır. Yəni vətəndaş hökumətin fəaliyyəti, ayrı-ayrı dövlət strukturlarının xidmətləri barədə məlumatları evindən çıxmadan, məmurların qəbuluna düşmədən əldə edə bilməlidir.

Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində "e-hökumət" fəaliyyət göstərir. Azərbaycanda "elektron hökumət" layihəsi Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan") çərçivəsində həyata keçirilir.

E-hökumət İKT-dən, ilk növbədə kompüter və internetdən istifadə etməklə dövlət təşkilatları ilə vətəndaşlar arasında operativ və maneəsiz qarşılıqlı əlaqəni təmin edən müasir rabitə və idarəetmə formasının qurulmasıdır. Elektron hökumət hər hansı bir ölkənin dövlət strukturlarının fəaliyyətlərinin hər bir vətəndaş üçün açıq olan şəbəkədə yerləşdirilməsi deməkdir.

E-hökumət vətəndaşların mənafeyinə hesablanmış bir sistemdir. Belə ki, elektron hökumətlərin tətbiqi korrupsiyanın azaldılmasına, «şəffaflığın», rahatlığın artmasına, dövlət gəlirlərinin artmasına və məsrəflərin azaldılmasına, əsas subyektlər ilə təsisat strukturları arasındakı informasiya münasibətlərinin tənzimlənməsinə gətirib çıxarır.

Elektron hökumət ölkənin bütün dövlət strukturlarının öz fəaliyyəti haqqında məlumatları internet saytı vasitəsi ilə vətəndaşlara çatdırılmasıdır. Eyni zamanda məmur – vətəndaş təmas hallarının minimuma endirilməsidir ki, bu da korrupsiyanın xeyli dərəcədə qarşısını almalıdır. Mütəxəssislər hesab edirlər ki, "elektron hökumət"in qurulması ölkədə hakimiyyət strukturlarının şəffaf fəaliyyət göstərməsinə gətirəcək.

Azərbaycan Respublikası Prezidenti "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" 23 may 2011-ci il tarixli 429 nömrəli Fərman imzalamış, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixdə "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi ilə bağlı qəbul edilmiş qərarına əsasən 273 xidmət növü müəyyənləşdirilmişdir. Bu siyahıya vətəndaşların maraqlı olduqları, tez-tez müraciət etdikləri xidmət sahələri daxildir.

Ötən müddət ərzində müxtəlif mərkəzi icra hakimiyyəti orqanları tərəfindən "Elektron Azərbaycan" Dövlət Proqramının tətbiqinə başlanmışdır ki, bu da vətəndaşlar tərəfindən rəğbətlə qarşılanır. Həmin Dövlət Proqramının həyata

keçirilməsi üzrə Tədbirlər Planına uyğun olaraq, bir sıra mərkəzi icra hakimiyyəti oraqanlarında elektron xidmətlərin tətbiqinə başlanmışdır. Belə ki, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya və bir sıra digər dövlət strukturlarında elektron-hökumət proqramı çərçivəsində vətəndaşlara onlayn elektron xidmətlər göstərilir.

Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər planının 7.2.3.11-ci bəndinə uyğun olaraq, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin səmərəliliyini təşkil etmək məqsədi ilə 2010-2012-ci illərdə yerli icra hakimiyyəti orqanları üçün nümunəvi informasiya sisteminin yaradılması nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev 2012-ci ilin I yarımilliyinin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş Nazirlər Kabinetinin iclasındakı çıxışında bütün nazirliklər və dövlət agentliklərinə elektron xidmətlərin siyahısının hazırlanması və təqdim edilməsinin tapşırıldığını, elektron xidmətlərin geniş şəkildə tətbiq edilməsinin korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə çox böyük amil olduğunu, bütün qurumlara elektron xidmətlər göstərməsinin tapşırıldığını, bəzi qurumların, nazirliklərin, ümumiyyətlə, elektron xidmətlər göstərmədiyini, onlara qısa müddətdə çatışmamazlığı aradan qaldırmaq üçün vaxt verildiyini qeyd etmişdir.

Binəqədi Rayonu İcra Hakimiyyətinin işçiləri tərəfindən Azərbaycan Respublikasının Konstitusiyası və digər qanunvericilik aktlarında nəzərdə tutulmuş vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsinin, qanunun aliliyinin, insan hüquqlarının, demokratik prinsiplərin və yüksək etik davranış qaydalarının rəhbər tutulmasının, icra orqanının səmərəli fəaliyyətinin təşkil edilməsinin və vəzifə səlahiyyətlərinin yerinə yetirilməsinin təmin edilməsi, səlahiyyətləri daxilində qərarların hazırlanması, qəbul edilməsi, icrası və icrasına nəzarət edilməsi, Binəqədi rayonu ərazisində yaşayan, fəaliyyət göstərən vətəndaşların yerli icra orqanına etimadının yüksəldilməsi, icra hakimiyyətinin fəaliyyətində şəffaflığın artırılması, korrupsiya və digər hüquqpozmalara yol verilmə risklərinin, hüquqa zidd əməllərin qarşısının alınması və bu sahədə profilaktik tədbirlərin gücləndirilməsi, işçilərin fəaliyyətinin qiymətləndirilməsində vətəndaşların təsiri imkanlarının genişləndirilməsi, aşkarlıq və ictimai rəyin nəzərə alınması məqsədi ilə modern və çevik idarəetmənin təmin edilməsi üçün əhaliyə elektron xidmətlərin göstərilməsi zəruridir.

Qeyd edilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 11 avqust 2010-cu il tarixli 1056 saylı Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" ("Elektron Azərbaycan")"nın icrası ilə əlaqədar "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6-cı bəndini rəhbər tutaraq

**ə m r   e d i r ə m :**

1. Binəqədi Rayon İcra Hakimiyyətində avtomatlaşdırılmış informasiya sisteminin (bundan sonra AİS) tətbiqi məqsədi ilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

| | |
|---|---|
| Vüsar İsmayılov | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |

**İşçi qrupu rəhbərinin müavini:**

| | |
|---|---|
| Elnur İmanov | RİH başçısı Aparatının Ümumi şöbəsinin müdiri |

**İşçi qrupunun üzvləri:**

| | |
|---|---|
| Nəsimi Cəfərov | RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| Ramiz Göyüşov | RİH başçısı Aparatının Ərazi idarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| Naib Bağırov | RİH başçısı Aparatının Təsərrüfat şöbəsinin müdiri |
| Əzizağa Məmmədov | RİH başçısı Aparatının Qaçqınlar və məcburi köçkünlərin problemləri ilə iş şöbəsinin müdiri |
| Səmayə Seyidova | RİH başçısı yanında Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiyanın məsul katibi |
| Elşad Rəhimov | RİH başçısı Aparatının İnformasiya təminatı və təhlili sektorunun aparıcı məsləhətçisi |

2. Müəyyən edilsin ki, ilkin mərhələdə AİS aşağıdakı komponentlərdən ibarət təşkil olunsun:

- elektron sənəd dövriyyəsi (elektron kargüzarlıq);
- vətəndaşların qəbulu (o cümlədən, onlayn videoqəbul);
- elektron xidmətlər;
- elektron xəritə;
- telefon məlumat xidməti;
- ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş;
- kadr işləri,
- analitik təhlil.

3. AİS komponentlərinin mərhələli tətbiqi üzrə Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

4. İşçi qrupunun rəhbəri V. İsmayılova tapşırılsın ki, Binəqədi RİH veb-saytının təkmilləşdirilməsi barədə təkliflərini təqdim etsin.

5. İşçi qrupunun rəhbəri V. İsmayılova tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nəzarət etsin.

6. Müəyyən edilsin ki, işçi qrupu görülmüş işlərlə bağlı ayda 2 dəfədən az olmayaraq müzakirələr keçirsin və bu barədə rəhbərliyə məlumat versin.

7. Binəqədi Rayon İcra Hakimiyyəti Başçısı Aparatının şöbələrinə, qəsəbə icra nümayəndəliklərinə və MKTB-nə tapşırılsın ki, RİH-də AİS-in yaradılması ilə əlaqədar işçi qrupuna zəruri köməklik göstərsinlər.

8. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**